

Aydın Mədətoğlu
Bizim yazar

***Zaman-zaman Aralıq dənizinə hakim olan dövlətlərin idarəsində olan Kipr adasında yerli əhalisi daha sonra xristianlığı qəbul edən Ortodoks (Pravoslav) xristian xalqı uzun zaman Katolik Venetsiyanın idarəsində ağır basqı altında yaşamış, hətta Ortodoks Arxiyepiskoplar vəzifəsindən kənarlaşdırılaraq sürgün edilmişlər. Bu ağır şərtlərdən əzab çəkən Kipr xalqı adından Arxiyepiskop Osmanlı sultanına müraciət edərək Kipri Osmanlı dövlətinə qatmağı xahiş etmişdir. Bu xahişi qəbul edən Sultan Süleyman Qanuni 1571-ci ildə əlli min şəhid verərək Kipri fəth etmişdir. Türklərin adaya gəlişini sevinclə qarşılayan Ortodoks rumlar Türklərə kömək etmiş, hətta Venetsiya bayrağını endirərək yerinə Osmanlı bayrağını sancan da bir yerli rum olmuşdur. Kipri fəth edən Türklər oraya otuz min əsgər və 5720 ailə yerləşdirmişdir ki, indiki Kipr Türklərinin əcdadı iştə bu köçmənlər və adada olan Türk əsgərləridir. Adanı fəth edən Türklər Ortodoks Arxiyepiskopu sürgündən qaytararaq Levkoşada öz vəzifəsinə təyin etmiş və İstanbul Patriarxına vermiş olduğu bütün imtiyazları ona da vermiş, beləliklə, Arxiyepiskopu Kipr rum Ortodoks xalqının lideri etmişdir. Bu liderlik 15 iyul 1974-cü ilə - yəni Yunanıstan zabitləri və EOKA-B terrorist təşkilatının Arxiyepiskop Makariosu ölkədən qovana qədər davam etmişdir.***

# Kıbrısın dünəni, bu günü, sabahı

Bütün xristian dünyasının birləşərək Osmanlı İmperatoluğunu çökdürmək istəyi nəhayət, 1878-ci ildə rus ordularının Boğazlara qədər yaxınlaşması Osmanlı İmperatorluğunu Batum, Qars, və Ərdəhanı ruslardan geri almaq müqabilində Kipr adasının müvəqqəti olaraq İngiltərəyə verilməsinə razı oldu. İngilislər Kipri keçici olaraq Türklərdən Türklərdən alınca ilk olaraq Türk məmurlarını işlərindən uzaqlaşdıraraq yerlərinə yunan təyin edirlər. Bu vəziyyət Kipr Türklərini getdikcə zor duruma salır və nəticədə adada Türklərin sayı azalmağa başlayır. Bundan istifadə edən yunanlar Kiprin Yunanıstana birləşdirilməsi üçün fəaliyyətə başlayırlar. Həhayət, Türkiyənin Birinci Dünya Müharibəsində Almaniyanın tərəfində olması və hər ikisinin Antanta tərəfindən məğlub duruma düşməsi İngiltərənin 5 noyabr 1914-cü ildə Kipri özünə ilhaq etməsi ilə nəticələndi. Məğlub Osmanlı dövləti bu ilhaqı yalnız protesto etməklə kifayətlənməyə məcbur oldu.

İngiltərə hökuməti hətta Yunanıstanın İngiltərə tərəfində müharibəyə qatılması şərti ilə Kiprin Yunanıstana verilə biləcəyini bildirmişdi. Lakin Kiprin onsuz da İngiltərənin əlindən çıxacağını zənn edən Yunanıstan bu təklifi qəbul etməmiş və nəhayət 1931-ci ilin oktyabr ayında adanı Yunanıstana birləşdirmək məqsədi ilə İngiltərə əleyhinə yerli rumlarla birgə üsyan qaldırmışlar. Lakin sonda üsyan yatırılmış, Arxiyepiskop və mitropolitlər adadan sürgün edilmiş və kilsə 35354 funt-sterlinq para cəzasına məhkum edilmişdir.

Üsyandan bir nəticə əldə edə bilməyəcəyini görən Kipr Arxiyepiskopu Makarios nəhayət 15 yanvar 1950-ci ildə kilsədə saxta seçki keçirərək Kiprin Yunanıstana birləşdirilməsinə 90 faizlik "hə" cavabı almışsa da Türkiyə və İngiltərə bu saxta seçkini tanımamışdır.

Vəziyyəti belə görən Yunan heyəti 1952-ci ildə Kipr yunanlarının öz müqəddəratını təyin etməsini Birləşmiş Millətlər Təşkilatından tələb etmişdir. Buna qarşılıq Türk heyəti də belə bir haqqın Kipr Türklərinə də verilməsini BMT-dən rəsmən tələb edir.

***Vəziyyətin belə şəkil aldığını görən Yunanıstan Kiprin Yunanıstana birləşdirilməsi üçün məsələnin müzakirə edilməsini İngiltərədən tələb edir. Lakin bu tələb rədd edilir.***

***Yunanıstan BMT və İngiltərədən rədd cavabı alınca Makariosun təklifinə uyaraq məsələni silah gücünə həll etmək məqsədi ilə EOKA adlı terror təşkilatı yaradır və onu silahsursatla təmin edərək 'Hər nə bahasına olursa-olsun, ilhaqı gerçəkləşdirmək" üçün EOKA andı içdirilir.***

***Bu təşkilat 1955-58-ci illərdə yüzlərlə Türkü qətlə yetirir, altı min Türk qaçqın vəziyyətinə düşür.***

Vəziyyətin çıxılmaz olduğunu görən Kipr Türkləri canlarını və mallarını qorumaq, müdafiə olunmaq üçün təşkilatlanmaq ehtiyacı duyur və 1 avqust 1958-ci ildə Kipr Türk Müqavimət Təşkilatını (TMT) yaradır. Bunun nəticəsi olaraq İngiltərə hökuməti Kiprdə vəziyyəti tənzimləmək üçün bir Anayasa hazırlayır və tarixdə bəlli "Maks-Millan planı"nı tərtib edərək rum-yunan tərəfinə təqdim edir.

Lakin rum-yunan tərəfi hər iki sənədi rədd edir. Maks-Millan planında nəzərdə tutulan Türkiyə təmsilçisinin Kiprdə rəsmi fəaliyyətə başladığını görən rum-yunan tərəfi adanın ikiyə bölünməsi təhlükəsini hiss edib müqavilə bağlamağa məcbur oldu. Tarixdə 11 fevral 1959-cu ildə imzalanmış "Zürih" və ardınca 19 fevral 1959-cu ildə imzalanmış "London" andlaşmaları ilə Müstəqil Kipr Respublikasının yaranması və Kipr Türklərinin bu Cümhuriyyətin statuslu qurucu ortağı olması rəsmən təsdiq edilir.




Kipr Türkləri və Kipr rumlarından ibarət bərabər statuslu Kipr Cümhuriyyəti 16 avqust 1960-cı ildə rəsmən elan olunur.

Bu Cümhuriyyətdə cümhurbaşqanı yardımçısı, on bakandan üçü, Təmsilçilər Məclisi üzvlərinin 30 faizi, hər sahə üzrə məmurların 30 faizi Türklərdən olur.

Türklər azınlıq yox, rumlarla bərabər statuslu xalq kimi qəbul edilir ki, bu da Kiprli rumlarını təmin etmir və Makarios Anayasaya on üç maddədən ibarət təklif hazırlayıb 30 noyabr 1963-cü ildə Kipr Türk liderliyinə, qarant dövlətlər olan Türkiyə, İngiltərə və Yunavnıstana təqdim edir.

***Kipr Türk liderliyi dərhal, Türkiyə isə 6 dekabr 1963-cü ildə bu təklifləri rədd edir. Bu on üç maddəlik təkliflər Kipr Türklərinin veto haqqı daxil, Türklərə tanınmış olan bütün haqları aradan qaldırır və Kipr Türklərinin bir xalq yox, bir azınlıq kimi tanınmasını tələb edir.***

***Makarios bu təkliflərə tərəfdar toplamaq üçün Moskva və əlaqədar dövlətlərə gedərək dəstək alır və Birləşmiş Millətlər Təşkilatından lehinə üçdə iki səs almağa müvəffəq olur.***

Bununla kifayətlənməyən Makarios EOKA təşkilatı ilə Kiprdəki yunan alayını Kipr Türklərinə qarşı hərəkata yönəldərək qətlam təşkil edir. Tarixdə qanlı "Hoel hadisələri" kimi qeyd edilən bu qətlamda 92 Kipr Türkü öldürülmüş, 475 nəfər yaralanmış, xeyli Türk itgin düşmüş, otuz min Türk qaçqın vəziyyətinə salınmış, 103 Türk kəndi yerlə yeksan edilmişdir. Vəziyyətin ağır olduğunu nəzərə alan BMT 4 mart 1964-cü ildə qərar verərək Kiprə BMT sülh qüvvəsi göndərir.

Silah gücü ilə hökuməti tamamilə ələ alan Makarios Kipr Türklərinin bütün haqlarını qəsb edərək Bakanlar Kurulu və Təmsilçilər Məclisini tamamilə rumlaşdırmışdır. Beləliklə, "Qeyri-qanuni Kipr Rum hökuməti" ortaya çıxır. Bu gün də bu vəziyyət davam etməkdədir.

Məsələyə çözüm bulmaq məqsədi ilə İngiltərə 15 yanvar 1964-cü ildə Londonda bir toplantı keçirmiş, lakin heç bir nəticə əldə edə bilməmişdir. Daha sonra BMT Təhlükəsizlik Şurası 17 fevral 1964-cü ildə məsələni müzakirə etmiş, fəqət heç bir sonuca ulaşa bilməmişdir. Əksinə, Makarios qərb ölkələrinə təzyiq göstərmək məqsədi ilə Sovet Rusiyası ilə əlaqəyə girərək, "Mülkü aviasiya" müqaviləsi bağlayır və əvəzində Rusiya və Çexoslovakiya BMT-də Makarios leyhinə səs verir.

Makarios həmçinin tabeliyində olan hərbi qüvvələrə 5000 nəfərlik "Xüsusi Polis Dəstəsi" də əlavə edərək Çexoslovakiyadan silah satın alır və bu silahlar rus təyyarələri ilə Kiprə gətirilir.



***Bütün bunlar azmış kimi Makarios Kipr Türklərinə dövlət büdcəsindən ayrılan 30 faizlik ödənişi kəsib rumlara aşağı faizli kreditlər verərək Kipr Türklərini tamamilə müflisləşdirir. Rumların isə inkişafına şərait yaradır. Makarios hətta Beynəlxalq təşkilatlardan aldığı yardımlardan da Kipr Türklərinə pay verməmiş, Türkiyə tərəfindən və Qırmızı Aypara cəmiyyətindən edilən yardımlardan belə Kipr Türklərindən vergilər almışdır. Makariosun əsas məqsədi Kipri Türksüz bir yunan dövləti etmək idi. Kiprdə olan yunan xuntası isə Yunanıstana arxalanaraq Kipri Yunanıstana birləşdirməyə çalışırdı. Makariosun Yunanıstan hökumətindən Yunan əsgərlərini geri çəkməsini istəməsi Yunanıstanla Makariosun arasında ziddiyyət yaratdı. Bunun nəticəsi olaraq 15 iyul 1974-cü ildə yunan zabitləri EOKA-B terroristləri ilə birgə Makariosu devirərək yerinə Hikos Sampsonu gətirmişlər. Radio ilə Makariosun öldürüldüyünü elan etmələrinə baxmayaraq, Makarios qaçaraq İngilislərə sığınmış və İngilislər vasitəsilə Kiprdən uzaqlaşdırılmışdır.***

(ardı gələn sayımızda)